**“Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Kollegiya üzvlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 129 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Kollegiya üzvlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 129 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 2, maddə 195) 2-ci hissəsinin “Kollegiyanın üzvləri” bölməsi aşağıdakı redaksiyada verilsin:

**“Kollegiyanın üzvləri:**

Əliyev Firdovsi Şahmirzə oğlu – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Quliyev Novruz Məhəmməd oğlu – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Hacıyev Rauf Vahid oğlu – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Yaqubov Hafiz Siyavuş oğlu – Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri

Cəlilov Rövşən Adil oğlu – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Aparatının rəhbəri

Hüseynov Xalıqverdi Cəmil oğlu – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin direktoru

Cavadov Vaqif Məhəmməd oğlu – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru

İsmayılov Şakir Abli oğlu – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin direktoru

Aslanov Azər Hidayət oğlu – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekspertiza İdarəsinin rəisi

Səttar-zadə Rasim İsrafil oğlu – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekologiya və təbiəti mühafizə siyasəti şöbəsinin rəisi”.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 10 iyul 2014-cü il
225